Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona "bismilləhir-rahmənir-rahim" enməyincə bir surəni digərindən ayrıldığını bilməzdi

İbn Abbasdan (Allah onların hər ikisindən razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona "bismilləhir-rahmənir-rahim" enməyincə bir surəni digərindən ayrıldığını bilməzdi.

[Səhih] [Əbu Davud rəvayət etdi]

İbn Abbas (Allah onların hər ikisindən razı olsun) bildirir ki, Quranın surələri Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) nazil olarkən "bismilləhir-rahmənir-rahim" ayəsi enməyincə, o, bu surələrin bir-birindən ayrılmasını, surənin bitdiyini bilməzdi. Bununla da Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) öncəki surənin bitdiyini və yeni surənin başlanğıcını bilirdi.

http://sunnah.global/hadeeth/az/show/65051